Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Gözəllik simvolu Leyla Bədirbəyli

**Leyla Bədirbəylinin 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2020**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Gözəllik simvolu Leyla Bədirbəyli:** L.Bədirbəylinin 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

# Leyla Bədirbəylinin 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin yanvar ayında Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Xalq artisti Leyla Ağalar qızı Bədirbəylinin (Cavanşirovanın) anadan olmasının 100 illiyi tamam olur.

Leyla Bədirbəyli uzunmüddətli fəaliyyəti ərzində öz sələflərinin ənənələrini uğurla davam etdirmiş və layiqli nümayəndəsi olduğu nəslin yaradıcılıq prinsiplərinə daim sadiq qalaraq Azərbaycan mədəniyyəti salnaməsinə yeni səhifələr yazmış sənətkarlardandır. O, fitri istedada malik teatr ustası kimi ifa üslubundakı səmimiyyət, məlahət və təbiilik sayəsində dramaturqlarımızın və dünya ədəbiyyatı klassiklərinin çox sayda qadın qəhrəmanına zəngin boyalarla parlaq səhnə həyatı vermişdir. Aktrisa “Arşın mal alan” filmində Gülçöhrə obrazı ilə böyük şöhrət qazanmış, 1940-cı illərdən etibarən, eyni zamanda, ekranlarda məharətlə canlandırdığı və mənəvi-əxlaqi dəyərlərin təbliği, tamaşaçı zövqünün formalaşdırılması baxımından əhəmiyyət kəsb edən silsilə rollarla milli kinematoqrafiyanı daha da zənginləşdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan mədəniyyətinin inkişafına töhfələrini nəzərə alaraq, görkəmli sənətkar Leyla Bədirbəylinin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Leyla Bədirbəylinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2019-cu il.

## Həyat və yaradıcılığı

İnsan ömrü əmanətdir. Dünyaya gəlir, bəxt payını yaşayır, alnına yazılanlar ürcahına çıxır. Bəzən şıltaqlıq edir, yaxud umub-küsür, bəzən də vaxt-bivaxt taleyindən razı qaldığı üçün ulu Tanrıya dualar oxuyur. Mərhum Leyla Bədirbəyli məhz belə insanlardan olub. Ulu yaradan ondan heç nəyi əsirgəməmişdi. Şirin dilli xanım “Azərbaycan gözəli”kimi fəxri ad almışdı. Sevib-seçdiyi sənətin yolunda minbir iztirablara, əzab-əziyyətlərə qatlaşırdı. Kiminsə önündə, nədənsə ötəri sınmaq, əyilmək, əl açıb yalvarmaq onun təbiətinə yad idi. Ömrü boyu özündən razı danışmadı. Baxmayaraq öyünməyə mənəvi ixtiyarı çatırdı. Niyə? Çünki cəzbedici gözəlliyi dillərdə dastan olmuşdu. Sayılıb-seçilən, müxtəlif xarakterli rolların mahir ifaçısı, görkəmli səhnə xadimi, kino-ekran ulduzu idi.

Zəmanəmizin böyük sənətkarı, Azərbaycanın Xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatı laureatı Leyla Bədirbəyli 1920-ci ildə Bakıda dünyaya göz açmışdır. Atası Ağalar Bədirbəyov Şəmkir bəylərinin nəslindəndir. Anası şəmkirli Bikə xanım Musaxan qızı isə əsl xan qızı idi.

Yanvarın ayazlı, qarlı-şaxtalı bir günündə doğulsa da, Tanrı bu zərif vücuda ılıq yaz nəfəsi, bahar təravəti qismət etmişdi. Qadın aktrisaların olmadığı, onların rollarını da bəlli səbəblərdən kişi aktyorların oynamaq məcburiyyətində qaldığı həmin çətin illərdə tale sanki bu gözəlliyi Azərbaycan səhnəsinə bir hədiyyə kimi göndərmişdi. Körpəliyindən surətini görən hər kəs böyüyüncə onun çox gözəl bir qız olacağını deyirdi. Doğmaları onun gələcəyini görməyin intizarını çəkirdilər. Elə teatr səhnəmiz, milli kinomuzun ekranı da bu gözəlin intizarında idi. Leyla xanımın səhnəyə ilk çıxışı 8

yaşında olmuşdu. Bakının keçmiş Poluxin küçəsində yerləşən Mərkəzi Kəndçi Evinin səhnəsində balaca bir qız uşağı səhnəyə çıxır. Onun anası mədəniyyət evinin tibb məntəqəsində işləyirdi. O, tez-tez balaca Leylanı özü ilə işə aparar, Leyla da həvəskar aktyorların məşqlərinə maraqla baxardı. Belə bir nəsilli-nəcabətli ailədə dünyaya göz açan Leyla xanım ömrünün sonuna kimi nəcibliyini, xanımlığını qoruyub saxlaya bilib. Elə bu yüksək insani keyfiyyətlərinə və ilahidən Leyla xanıma verilmiş təbii gözəlliyinə görə xalq tərəfindən ona Azərbaycan gözəli adı verilmişdi. Və o, elə beləcə də yaddaşlara həkk olunmuşdu.

Bir dəfə dərnəyin rejissoru Əlisəttar Babayev bu balaca qıza diqqətlə nəzər salıb deyir: "Görürəm, səhnəyə yaman həvəsin var. Gəlsənə, özün kimi balaca bir rol tapşıraq sənə... "Beləcə balaca Leyla ilk dəfə "Coşqun" tamaşasında Coşqunun bacısı rolunda səhnəyə çıxır.

L. Bədirbəyli kino səhnəsinə də çox erkən yaşlarından gəlib. O, hələ yeniyetmə ikən moskvalı rejissor D, Vertovun "Lenin haqqında üç mahnı" sənədli filmində pioner qız rolunda çıxış etmişdi. Bundan sonra, 1937- 1942-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs ansamblında "Bir dənəsən", "Naz eləmə", "Tərəkəmə" rəqslərini elə məharətlə ifa edirdi ki, neçə on illər keçməsinə baxmayaraq sənətşünaslar indi də bu barədə fəxrlə danışırlar.

Leyla Bədirbəyli peşəkar teatr səhnəsinə gəlməzdən əvvəl 1937-ci ildə, "Dəcəl dəstə" filmində pioner dəstə rəhbəri, 1941-ci ildə "Səbuhi"filmində Tubu, 1942-ci ildə "Sovqat" filmində Ayna rollarında oynayıb. "Dəcəl dəstə" uşaq filminin göstərilməsinə icazə verilmirdi, lakin Dövlət Film Fondunun təşəbbüsü ilə bu filmin surəti Moskva kino arxivindən alındı və

respublikamızda göstərildi. Bu filmdə çox gənc, 17 yaşlı L. Bədirbəylini görmək imkanımız var.

L. Bədirbəyli "Səbuhi" filmindəki M. F. Axundovun səmimi və mehriban həyat yoldaşı Tubu xanımın obrazını yaradır. Məhz "Səbuhi" filmindən sonra L. Bədirbəyli teatrda işləmək üçün dəvət alır. Aktrisanın özü həmin dövrü belə xatırlayır: "Xalq yazıçısı Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Rəsul Rza, Rza Təhmasib və Adil İsgəndərov kimi sənətkarların təsiri ilə mən günlərin bir günü filarmoniya səhnəsindən Akademik Dram Teatrının səhnəsinə dəvət olundum. Bu dövrü mən yaradıcılığımın ikinci və daha mühüm dövrü hesab edirəm".

L.Bədirbəylinin teatrda ilk çıxışı M.İbrahimovun "Məhəbbət" tamaşasında Zəhra rolu olub, onun ardınca A.Ostrovskinin "Tufan"ında Klaşa obrazını yaradıb. Bundan sonra teatr səhnəsində "Pəri cadu" tamaşasında Pəri, "Vaqif" də Gülnar və Xuraman, "Xanlar"da Mehriban, "Solğun çiçəklər"də Sara, "Almaz" da Almaz, "Şərqin səhəri"ndə Dilarə, "Xoşbəxtlər"də İncə, "Əliqulu evlənir"də Qumral, "Kəndçi qızı"nda Göyərçin, "Şeyx Sənan"da Zöhrab, "Uzaq sahillərdə" Ancelika, "Otello"da Dezdemona, "Canlı meyit"də Liza və digər rollar ifa edib. Leyla xanım tamaşalarda əsasən baş rolları oynayıb. Həmçinin kinoda da Leyla xanım baş rollarda iştirak edib.

1945-ci idə "Arşın mal alan" filmi çəkildi. Bu film çəkilən il Leyla xanımın həyatında xüsusilə əlamətdar bir il oldu. Filmdə baş rolda çəkilən Leyla gözəldir, zərifdir və həssasdır. O öz həmyaşıdlarından azad seçim və əsl məhəbbət arzusunda olması ilə fərqlənir. O öz hissləri ilə sanki bütün cəmiyyətə meydan oxuyur. Axı, o, gözəl arşılmalçını sevib. Atasının hədə-qorxularına baxmayaraq, Gülçöhrə öz məhəbbətindən imtina etmir, əksinə, axıracan öz məhəbbətini müdafiə edir. Leyla xanımın oyununda Gülçöhrənin hisslərindəki cəsarətsizliklə qətiyyətliyin bir-birinə keçməsi o qədər təbii,

səmimi, alınıb ki, uzun illər aktrisanın adı bu qəhrəmanın adı ilə uyğun səslənirdi.

"Arşın mal alan"qısa vaxt ərzində dünya şöhrəti qazandı və dünyanın bir çox xalqları bəstəkarın sehrli musiqisinə, mənalı yumoruna valeh oldular. "Arşın mal alana"a görə yaradıcı qrup, o cümlədən Leyla Bədirbəyli 1946-cı ildə Stalin mükafatına (sonralar SSRİ Dövlət mükafatı adlandırıldı) layiq görüldülər.

L. Bədirbəyli yaratdığı Gülçöhrə obrazı ilə əlaqədar dünyanın müxtəlif ölkələrindən məktublar almışdı. Bolqarıstandan gənc qadının ona göndərdiyi məktubu bu sözlərlə qurtarır: "Mən beş oğlun bir bacısına məharətlə oynadığınız Gülçöhrənin adını verdim. Bolqarıstanın Gülçöhrəsi Sizin kmi şöhrət qazansa, özümü xoşbəxt sayaram".

Qeyd etmək lazımdır ki, L. Bədirbəylinin kinoda aktyor taleyi olduqca uğurlu olub. O, öz yaradıcılığında həmişə yüksək insani keyfiyyətlərə malik milli koloritli qadınların bədii obrazlarını təcəssüm etdirib. Leyla xanımın çəkildiyi filmlərin tematik dairəsi geniş, qəhrəmanları müxtəlifdir. O, 50-yə yaxın bədii, qısametrajlı bədii filmdə çəkilmiş, bacılarımızın, analarımızın, nənələrimizin obrazlarını yaradıb. Onun "Fətəli xan" və "Koroğlu" filmlərində yaratdığı Tuti Bikə və Nigar obrazları təkcə sevimli ərlərinin nəzakətli, incə və etibarlı arvadları deyil, həm də igid, cəsur məsləkdaşlarıdır.

Tuti Bikə Fətəli xanın həyat yoldaşıdır. O, sədaqətli qadın, fədakar ana, cəsarətli döyüşçüdür. Leyla xanım qəhrəmanını məhz bu keyfiyyətləri ilə bizə təqdim edir və yadda qalır.

Məşhur "Koroğlu" xalq dastanının eyniadlı variantı olan kino dastanında L. Bədirbəyli Koroğlunun sevgilisi, Həsən xanın qızı Nigarın surətini yaradıb. Nigar xan qızı olsa da, Rövşəni həqiqi bir məhəbbətlə sevir. Atasının zülmkar əməlləri onu bərk narahat edir. Buna görə o, əzab çəkir, saray mühiti onu sıxır. Nəhayət, Nigar imkan tapan kimi qaçıb Çənlibelə,

Koroğlunun yanına gedir. Aktrisa Nigarın keçirdiyi iztirabları, həyəcanları, daxili gərginliyini bacarıqla göstərə bilib.

Elə bu baxımdan L.Bədirbəylinin "Onun böyük ürəyi" filmindəki Xalidə rolunu xüsusilə qeyd etmək lazımdır. Burada aktrisa böyük psixoloji həssaslıqla insan xarakterinin pərakəndəliyini və inamsızlıq hissini açıb göstərə bilib. Xalidə və Rəcəb bir-birlərini sevirlər. Böyük Vətən müharibəsi başlanandan sonra Rəcəb cəbhəyə gedir. Xalidə onun qayıdacağına inanmır. Öz həyatını yaşamağa başlayır. Rəcəb döyüşlərin birində ağır yaralanır, gözləri tutulur. Rəcəbi bu vəziyyətdə görən Xalidə birdəfəlik ondan uzaqlaşır. Xalidə obrazı aktrisa L.Bədirbəylinin xarakterinə, təbiətinə uyğun olmasa da, bu rolun öhdəsindən bacarıqla gəlib.

Azərbaycan və Özbəkistan pambıqçılarının ənənəvi dostluğundan söhbət açan "Görüş" kinokomediyasında məhəbbət mövzusu ilə bağlı bir neçə sujet xətti var. Bunlardan biri Bilqeys-Musa xəttidir. Filmdə gənc pambıqçı Bilqeyisin obrazını L.Bədirbəyli yaradıb. Bilqeys qabaqcıl pambıqçı olmaqla yanaşı, həm də qayğıkeş bacıdır. Qardaşı Kamilin avaraçılığına göz yummayan bacı onu hər cür ciddi-cəhdlə düz yola qaytarmağa çalışır. Leyla xanımın ifasında Bilqeys ismətli, həyalı, mehriban, işgüzar müasir Azərbaycan qızlarının ümumiləşdirilmiş obrazıdır. Biz bunu Bilqeyisin sevgilisi Musaya olan münasibətində də aydın görürük.

L.Bədirbəyli müxtəlif illərdə çəkilmiş "Kölgələr sürünür" filmində Leyla, "İntizar"da Ana, "Sevil" film-operasında Tafta, "Gilas ağacı"nda nənə, "Bizim küçənin oğlanları"nda Leyla, "Çarvadarların izi ilə"də Məfruzə, "Vulkana doğru"da Gülsüm, "Kişi sözü"ndə Ana, "Dərviş Parisi partladır"da Şəhrəbanu xanım, "Asif, Vasif, Ağasif"də nənə, "O dünyadan salam"da Kəblə Fatma və başqa filmlərdə maraqlı surətlər yaradıb.

Leyla xanım bu filmlərdə gənc qadın, ana, nənə, rollarının hamısında məlahətlidir, gözəldir, istər bisavad Kəblə Fatma,

Şəhrəbanu xanım olsun, istərsə də müasir nənələr. Hərənin də öz xarakteri, öz həyat tərzi.

L.Bədirbəyli milli teatr və kinodakı fəaliyyəti ilə uzun illər işləmiş, azərbaycan incəsənətinə, mədəniyyətinə öz yaradıcılıq töhfəsini vermişdir. O, "Azərbaycanfilm" kinostudiyasının aktyor şöbəsində işləyərkən istedadlı gənclərin inkişafına kömək edir, onlara dəyərli məsləhətlərini verirdi.

L.Bədirbəyli eyni zamanda Azərbaycan milli televiziyasının göstərdiyi bir çox televiziya tamaşalarında da müxtəlif rollar ifa edib, uzun illər televiziyanın "Aktyor, kino, rol" verilişinin aparıcısı olub. O, vəfatından bir il əvvəl "İstiqlal" ordeni ilə təltif edilib.

L.Bədirbəyli həyatı ilə bağlı ona verilən suallara vaxtilə belə bir cavab verib: "Mənim həyatımı uzun bir yola bənzətsək, bu yol heç də həmişə hamar olmayıb. Sevinc dolu günlərim də olub, kədərli günlərim də. Bir sözlə məşəqqətli və ilhamlı günlər yaşamışam. Amma heç vaxt sızıldayıb, ah-uf eləməmişəm".

Bəli, Leyla xanım nəcib olduğu qədər də mərd insan idi. Xalq artisti, Dövlət mükafatları laureatı, gözəl insan Leyla Bədirbəylinin bütün zəngin yaradıcılığı gələcək nəsillərə yadigar qalacaq, unudulmaz və sevimli sənətkarımızı əbədi yaşadacaq.

## Yubiley tədbirlərinin keçirilməsi

Bir əsrdən də çox yaşı olan milli teatr sənətimizin yüzlərlə fədaisi olub, var və olacaq da.

Azərbaycan səhnəsində özünəməxsus yer tutan, səhnəmizin fədaisi Leyla Bədirbəyli. Sənət yollarında heç vaxt arxayınlaşmayan, öz yolu, öz cığırı ilə addımlayan, insanların mənəvi dünyasını fəth edən L.Bədirbəylinin bu il 100 yaşı tamam olur. Elə bu münasibətlə respublikamızın hər bir mədəniyyət ocaqlarında, teatrlarda, musiqi məktəblərində,

kitabxanalarda və s. yerlərdə sənətkarın yubileyi ilə bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin keçirilməsində məqsədimiz sənətkarın yaradıcılığı ilə oxucuları yaxından tanış etmək və onun oynadığı rolları oxucuya sevdirməkdən ibarətdir. İlk olaraq F.Köçərli adına Resbublika Uşaq Kitabxanasında tədbirlərlə bağlı plan hazırlanmışdır. Plana əsasən kitabxanada L. Bədirbəylinin yubileyi ilə bağlı foto sərgi nümayiş olunur. Sərgidə L.Bədirbəylinin müxtəlif illərdə çəkilmiş rollarından fotolar nümayiş olunur. Təşkil olunmuş sərgiyə "Səhnəmizin fədaisi L. Bədirbəyli" adlı başlıq verilir:









Yuxarıda qeyd etdiyimiz kimi teatr və kino tarixində özünəməxsus üslubu ilə seçilən, əvəzolunmaz aktrisamız Leyla Bədirbəylinin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmaqdadır. Belə tədbirlərin siyahısı genişdir. Elə bu münasibətlə kitabxanada yubiliyarla bağlı kitab müzkirəsi keçirilir. L.Bədirbəylinin həyat yolu o qədər genişdir ki, onun haqqında bir neçə kitab, monoqrafiyalar yazılıb. Seçdiyimiz kitabların içində L.Bədirbəyli yaradıcılığına bir neçə dəfə müraciət etmiş sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin “Sənət fədailəri”, “Səhnə fədailəri” adlı kitablarıdır. Bu kitablar demək olar ki, ömrünü Azərbaycan səhnəsinə, kinosuna həsr etmiş sənət və səhnə fədailərinə aid edilmişdir.







Kitab çox nəfis şəkildə nəşr olunmuşdur. Kitabda hər bir teatr, kino xadiminin həyat və yaradıcılığı geniş şəkildə verilmiş, sənətkarların şəkilləri də nəfis şəkildə tərtib olunmuşdur. “Səhnəmizin fədailəri”adlı tədbirə müəlliflə yanaşı, şair və yazıçılar, sənət adamları, kitabxanaçılar, oxucular dəvət olunur. Kitabxanaçı tədbiri açıq elan etmək üçün sözü kitabın müəllifi professor İlham Rəhimliyə verir.

Bildiyiniz kimi, teatr tariximizdə gözəlliyi, səhnə məlahəti həmişə yüksək qiymətləndirilən Leyla Ağalar qızı Bədirbəyli (Cavanşirova) əslən Şəmkirli olsa da, 1920-ci il yanvar ayının 8-də Bakıda doğulub. Burada 3 saylı beynəlmiləl məktəbdə oxuyandan dram dərnəyinin iştirakçısı olub. Əsasən Əli Bayramov adına klubda çıxış edib. On dörd yaşından Azərbaycan Dövlət Filarmoniyasının rəqs ansanblına üzv olub. Orta məktəbdə oxuya-oxuya rəqqasəlik edib, daha sonra Mahnı və Rəqs Ansamblında solist işləyib. 1942-ci ildə "Səbuhi" filmində Tubu xanımın roluna çəkilib.

16 oktyabr 1942-ci ildə teatrın baş rejissoru Ədil İsgəndərovun çağırışı ilə Milli Dram Teatrına aktrisa götürülüb. 1975-ci ildə aktrisa Cəfər Cabbarlı adına "Azərbaycanfilm"in nəzdində yaradılan Kino aktyorları teatrının bədii rəhbəri və aktrisası işləyib. Burada Qarsiya Lorkanın "Qanlı toy", Məmməd Muradın "Təkan" dramları və sair pyeslər tamaşaya hazırlanıb.

Leyla Bədirbəyli 1944-cü il mart ayının 3-də yenidən Milli teatra gəlib və Vidadi Babanlının "Ana intiqamı"ında Qumru müəllimə rolunu oynayıb. 1998-ci ildən öz ərizəsi ilə təqaüdə çıxıb. Prezident təqaüdü alıb.

Bir əsrdən artıq yaşı olan milli teatr sənətimizin yüzlərlə fədaisi olub, var və yetişəcək də. Teatr estafetini müxtəlif zaman kəsiklərində bizə çatdırmış aktyorların, aktrisaların, rejissorların, teatr rəssamlarının bir qismi haqqında kitablar yazılıb, başqa bir dəstəsindən monoqrafiyalar çap olunub, əksər hissəsi barədə yalnız kiçik məqalələr çıxıb. Bəli, belə sənət fədailərindən biri də gözəl xanım L.Bədirbəylidir.

Bildiyiniz kimi, L.Bədirbəyli dramatik aktrisadır. Müxtəlif janrlı tamaşalarda çıxış etsə də, oynadığı obrazın bədii

tutumunu dramatik zəmində kökləyib. İfasında sadə və əsasən realist boyalara üstünlük verib. Səhnədə ciddi, bir qədər romantik, bəzən melodramatik obrazları oynamaqda daha səriştəlidir.

Əziz oxucu! Təqdim etdiyimiz bu kitab Mədəniyyət və İncəsənət Universitetinin, Bakı Mədəni Maarif Məktəbinin tələbələri və teatrla, milli mədəniyyətimizlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Həmçinin kitabdan ədəbiyyat müəllimləri, kitabxanaçılar, Leyla Bədirbəylinin yaradıcılığı ilə bağlı təqdiqatlar aparan jurnalistlər də istifadə edə bilərlər.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yubilyarla bağlı "Ömrümün nağılları" adlı söhbətin keçirilməsi məqsədəuyğundur. Belə ki, bu tədbir əsasən yuxarı yaş qrup oxucularla keçirilsə daha yaxşı olar. Kitabxanaçı tədbirə geniş şəkildə hazırlaşır. Geniş auditoriya üçün nəzərdə tutulmuş tədbirə sənət adamları, İncəsənət Universitetinin tələbələri qonaq qismində dəvət olunurlar.

Kitabxanaçı L.Bədirbəylinin 1998-ci ildə Bakı, -"Gənclik" nəşriyyatı tərəfindən nəşr olunmuş "Ömrümün nağılları" adlı kitabını qonaqlara təqdim edir.




Tədbir iştirakçıları kitabla tanışlıqdan sonra kitabxanaçı L.Bədirbəylinin özü haqqında yazdığı ömür dəftərindən söhbət açır.

Əziz oxucu! Özüm barədə ən dürüst sözü yəqin ki, məndən savayı deyən olmayacaq. Elə bilirəm ki, onu mənim dilimdən eşitmək sizin üçün də xoş olar. Buna görə də yaddaşımı

vərəqləyib, söhbətə başlayıram.

Mətləbə keçməzdən əvvəl onu da bildirməliyəm ki, həyat yolumdakı əlçatmaz illərin ecazkar və füsunkar gücündən heç vaxt azad olmaq istəməmişəm, çünki geri dönüb baxdığım illər ömrümün bəzəyi, həyatımın mənasıdır. Hər dəfə o anlara qayıdanda həmin günlərin təravətini yenidən duyuram. Nağıllı dünyamın gerçəklik dolu gözəllikləri məni yaşamağa və yaşatmağa səsləyir.

İnsan həyatı bir nağıldır. Mən bu nağıllar aləmində gördüyüm, tanıdığım insanlardan söhbət açmağı vacib bilirəm. Çünki onlar mənim nağıllı dünyamın qəhrəmanlarıdır. Hərə öz varlığı, öz xasiyyəti və sənətilə həyatımda müəyyən yer tutub. Hər dəfə dönüb ömür yoluma baxanda həyatımda iz buraxmış bu insanlar yenə də xəyalımda, gözlərim önündə o zaman olduqları kimi canlanırlar. İnsan xəyalən uşaqlıq illərinə, gəncliyinə dönəndə sonsuz fərəh hissilə xatırladığı şəxslərdən ayrılmadığına sevinir.

1923-cü il yanvar ayının 8-də Bakıda, İçərişəhərdə yaşayan ziyalı bir ailədə dünyaya göz açmışam. Şəmkir bəylərinin nəslindən olan atam, Bədirbəyov Ağalar Aydın oğlu əvvəl gimnaziyada oxumuş, sonra yüksək hərbi məktəb bitirmişdi. Anam şəmkirli Bikə xanım Musaxan qızı isə əsl xan qızı idi. 1918-20-ci illərdə atam, anamı Bakıya gətirmişdi. Əvvəl anam gündüzlər oxuyardı, sonralar isə oxumaqla yanaşı həm də işləyərdi. Əli Bayramov adına qadınlar klubuna gedər və fəal qadınlarla ünsiyyətdə olardı. Ceyran Bayramova, Ayna Sultanova, Hökumə Sultanova və başqaları ilə birgə çalışardı. Məni 5-6 yaşlı Leylanı da özüylə kluba aparar, kurslarda məşğul olduğu zaman rəqs dərnəyində məşğələyə verərdi.

İlk dərs müəllimim Ceyran xanım adlı qadın idi. Gözümü bu aləmə açandan, dünyanı naxışlı, rəngarəng bir xalça kimi görmüşəm. Bu gözəlliklər dünyasının naxışları gözümü elə qamaşdırdı ki, daxilimdə incəsənət işığının necə yandığını bilmədim. Onu bildim ki, bütün varlığımla bu aləmə məftunam.

Məktəbə getdim, oxudum, rəqs elədim, oynadım və bir də gördüm ki, böyük qız olmuşam.

Sehirli rəqs aləmi məni ecazkar qüvvəsilə özünə tərəf çəkib aparırdı. Artıq 13 yaşımda M.Maqamayev adına filarmoniyanın mahnı və rəqs ansamblının solisti kimi fəaliyyət göstərməyə başladım.

Mən öz taleyimə çox minnətdaram. Çünki məktəb skamyasından başlayaraq təhsil ocaqlarında, yaradıcı kollektivlərdə çox böyük müəllimlərim olub. Bu müəllimlərin, sənətkarların hər birinin həyatımda böyük rolu olub. Mən həmişə iftixar və hörmətlə yanaşı onlara böyük minnətdarlıq hissini də qəlbimdə gəzdirirəm.

Bəli, əziz oxucu L.Bədirbəylinin belə desək, öz tərcümeyi haqqında qələmə aldığı sətirlərdən bir qismini sizlərə təqdim etdik. Ümid edirik ki, bu kitaba bu təqdimatdan sonra marağınız daha da artacaq, sizin sevimli kitablarınızdan biri olacaqdır. Tədbiri elə Leyla xanımın kitabın sonunda yazdığı sətirlərlə başa vurmaq istərdik.

Yazıb bitirmək istəmədiyim sevinc dolu, əzab dolu ömür dəftərimi vərəqləməyə ehtiyac duydum. Gözəlliklər aləmi olan sənət yolu bütün ömrümü bəzəyib, həyatımın mənasını təşkil edib. Mənim bir insan kimi, bir sənətkar kimi formalaşmamda mühüm rol oynayan, xatirimdə yaşayan və heç bir zaman unudulmayan anları və insanları siz oxuculara çatdırmaq uzun

illər arzum olub. Bu arzunu qəlbimdə siz oxucular oyadıb, bu həvəsi məndə neçə-neçə tanıdığım və tanımadığım xeyirxah insanlardan aldığım məktublar oyadıb.

Ona görə də sizə, əziz və hörmətli oxucularıma öz minnətdarlığımı bildirirəm. Nağıllar aləmi olan həyat və yaradıcılığımla bağlı yazılarım sizə xoş əhval gətirərsə, özümü xoşbəxt sanaram. Çünki keçdiyim həyat yoluma dönüb bir də nəzər salanda onun işığı, nuru, dünənimə də, bu günümə də, sabahıma da işıq salır və məni yaşadır.

Görkəmli aktrisa L.Bədirbəylinin 100 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında xatirə gecəsinin keçirilməsi də nəzərdə tutulmuşdur. Tədbirə kitabxanaçı iki ay qabaqcadan hazırlaşır. İlk olaraq tədbirin ssenarisi hazırlanır, iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbirə gələn qonaqlar L.Bədirbəyli haqqında xatirələrini danışdıqdan sonra, L.Bədirbəylinin azərbaycan səhnəsində yaratdığı rollardan səhnəciklər göstərilir. Səhnədən L.Bədirbəylinin portreti asılır.

Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:** Libasını geyindiyi bütün surətlərə elə bir şirinlik bağışlamışdı ki, onu seyr etməkdən doymaq olmurdu. Bu böyük sənətkarın pərəstişkarı çox idi. Onun bütün rollarından tutmuş, televiziya verilişlərindəki çıxışlarına qədər hamısını maraqla izləyən tamaşaçı qüdrətli sənətkarın necə böyük ürəyə malik olmasını həm duyur, həm də heyrətə gəlir. Çünki Leyla xanım yaratdığı obrazlara elə can və ruh verərdi ki, tamaşaçı bütün varlığı ilə ona diqqət kəsilərdi. L.Bədirbəyli adicə aktrisa deyildi, o, teatr sənətinə, milli kinoya işıq və əlvanlıq, məlahət gətirən bir gözəllik pərisi idi. Leyla xanım 1999-cu ilin sonunda dünyasını dəyişəndə pərəstişkarlarına elə gəldi ki, yer

üzünü bürümüş bir bəyazlıq qapqara kədərə çevrildi. İnana bilmədik ki, bir daha L.Bədirbəylinin səsi gəlməyəcək. O gündən bəri unudulmaz Leyla xanım barəsində düşünəndə böyük şair M.Arazın misraları xəyalımızdan keçir:

Hərdən inanmıram, ölüm haqq ola,
Torpaq rəssam uda, gözəl qocala.

Amma təəssüf, təəssüf...Bu fani dünyanın əzəldən amansız qanunları var. Yaşdan-başdan, vardan-yoxdan asılı olmayaraq, hamımız vaxtlı-vaxtsız son ünvanın yolçularıyıq. Amma elə insanlar var ki, onlar öz ölümləri ilə belə ölümə meydan oxuyur, ona qalib gəlirlər. Sənətləri, fəaliyyətləri ilə elə ucalıqda dayanırlar ki, nə fiziki yoxluqları, nə həyatın gərdişləri o fövqün yanından ötə bilmir. Xəyalımızda, eləcə də kino lentlərində olduqları kimi qalırlar. Heç zaman da onların gözəlliyini soldura bilmir. Bu mənada, L.Bədirbəyli həmişəyaşardır. Onun böyük məharətlə yaratdığı obrazlar kinomuzda yaşamaqda, teatrımızda xatırlanmaqdadır.

Həqiqətən də elə insanlar var ki, əbədi ayrılığın illəri üst-üstə qatlandıqca onların həm həyatda, həm də sənətdə yerləri apaydın görünür, yoxluğu bizi incidir, Azərbaycan milli teatrının və kinosunun inkişafında əvəzsiz xidmətləri olan Leylaxanım Bədirbəyli kimi. Yaşasaydı, indi onun 100 illik ömrünün sevincinə yığışardıq. Amma elə acılar var ki, neçə illərdir biz Leyla xanımın yubileyini belə titrək və xəfif bir kədərlə qeyd edirik.

**II Aparıcı:** Otuz ildən artıq bu sənət məbədinin səhnəsində bir-birindən fərqli qadın obrazları yaradıb. İllər keçdikcə, L.Bədirbəyli Azərbaycan teatrının inkişafındakı xidmətləri həmişə xatırlanır. O, milli teatrımızın səhnəsində yaratdığı

Sara("Solğun çiçəklər"), Almaz("Almaz"), Solmaz("Od gəlini"), Şəlalə("Yalan"), Dezdemona("Otello"), Liza("Canlı meyit") və s. kimi obrazları ilə mədəniyyət tariximizin qızıl səhifələrini yazıb. Rəhmətlik Möhsün Sənani ilə L.Bədirbəylinin tərəf-müqabili olduğu, "Göz həkimi"(İslam Səfərli) tamaşası görənlərin yaddaşında pozulmaz naxışlar salıb.

Unudulmaz L.Bədirbəylinin təkcə kino sənətindəki fəaliyyəti bir ömrün şöhrət zirvəsinə bəs edərdi. Milli kinomuzu Leyla xanımsız təsəvvür etmək qeyri-mümkündür. Onun bu sahədəki obrazlar qalereyası çox zəngindir. L.Bədirbəyli neçə kinofilmdə müxtəlif insanların taleyini yaşayıb-yaradıb. Dünyanın bütün kinosevərlərini, sənətşünaslarını məftun edən, "Arşın mal alan" filmindəki Gülçöhrə obrazı sanki L.Bədirbəylinin ikinci adı, ləqəbi, bir sözlə, sənət möhürü idi. 80 ilə yaxındır ki, Leylanın Gülçöhrəsi kino sənəti taxtında şahlıq edir. Hələlik bu tacın yeganə sahibi Leyla xanım özü qaldı.

Doğrudur "Arşın mal alan" filmi ikinci dəfə çəkildi, müxtəlif teatrlarda tamaşaya qoyuldu. Amma səhnədə də, ekranda da bircəciyinin vurğunu olduq: böyük sənətkarın can verdiyi, özünün də çox verdiyi bu günə kimi qəlbimizə hakim kəsilən Gülçöhrə libaslı Leylanın. Bu yerdə Gülçöhrənin dərin məhəbbətlə sevdiyi Əsgəri-unudulmaz Rəşid Behbudovu da xatırlamamaq qeyri-mümkündür. Məhz o qüdrətli sənətkarın tərəf-müqabili olmaları bəlkə də "Arşın mal alan"ın belə uğurlu və şöhrətli alınmasını şərtləndirdi.

İncəsənət Universitetinin tələbələri səhnəyə daxil olur: M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah"

komediyasından Leyla xanımın yaratdığı Şəhrəbanu xanımın dialoqunu səhnələşdirib göstərirlər.

**Şəhrəbanu xanım:** Xanpəri, necə oldu dərviş gəlmədi.

**Xanpəri:** Xanım, tələsmə, bu saat gələr.

Birdən qapı açılır. Məstəli şah cadukünі-məşhur qaşqabağı tökülmüş içəri girdi.

**Məstəli şah.**Səlam-əleyküm!

**Şəhrəbanu xanım:** Əleyküməssəlam, baba dərviş, xoş gəldin! Gəl otur.

**Məstəli şah** (oturub) Xanım, mənə nisbət nə qulluğunuz var? Buyurun, can-baş ilə bitirməkdə müzaqiyə yoxdur!

**Şəhrəbanu xanım:** Baba dərviş, bir cüzvi, yüngül işdən ötrü sənə zəhmət vermişəm. Mətləb budur ki, bizim Şahbaz lap yolundan azıb; bir firəngi qonağımız var, xəyalındadır ki, ona qoşulub Parij şəhərinə getsin, mənim bu oturan, gülüzlü uşağımı ki, onun adaxlısıdır, iyirmi gündən sonra toyu başlanacaq, ağlar-sızlar qoysun. Mən və Hatəmxan ağa nə qədər yalvardıq, söylədik qulaq asmadı; gərədir ki, bir iş edəsən ki, bizim Şahbaz Parijə gedə bilməsin və müsyö Jordan ondan əl çəksin, aparmasın.

**Məstəli şah:** Xanım, bu cüzvi, yüngül iş deyilmiş; bəlkə çox böyük və çətin iş imiş. Gərəkdir bu işdə mənim cadumun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın.

**Şəhrəbanu xanım:** Baba dərviş, mən anlamadım, necə gərək cadunun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın.

**Məstəli şah:** Xanım, məsələn əgər Şahbaz bəyə əl vursam, lazım olur ki, onun bədəninə bir cin müsəllət edim ki, bu səfərin xəyalını onun başından çıxarsın. Amma olur ki, bu işdən o qorxsun, ağlına rəxnə yetişsin, ya azarlasın, ya çolaq olsun, çünki çox uşaqdır, cavandır.

**Şəhrəbanu xanım:** Bıy, Allahı sevirsən, baba dərviş, belə danışma, bu işlər tamam ondan ötrüdür ki, Şahbaz bir gün gözümüzdən uzaqlaşmasın. Necə olar ki, onun canına cin müsəllət olmağa razı olaq?

**Məstəli şah:** Bu surətdə gərəkdir ki, divlərə, ifritələrə əmr dəxi ora getmək niyyətindən düşsün, yaniki Mərrix ulduzuna hökm edim ki, müsyö Jordanın boynunu vursun ki, Şahbaz bəyi aparan olmasın. Bu işin bundan başqa heş çarəsi yoxdur.

**Şəhrəbanu xanım:** Bu necə mümkün şeydir, baba dərviş, belə iş eləmək olarmı?

**Məstəli şah:** Pəh, bu mənim işimdir, xanım, nə şübhə yeridir!

**Şəhrəbanu xanım:** (təəccübdən əlin dodağına aparıb). Allah, dərdini əsirgə...

**Məstəli şah:** Xanım, gecə keçir, durmaq vaxtı deyil. İndi siz mənə buyurun görüm, müsyö Jordan ha vaxt gedəcək?

**Şəhrəbanu xanım:** On gündən sonra.

**Məstəli şah:** Çox yaxşı, indi mən bu saatda, xanım, sizin gözünüzün qabağında Parijin heykəlin bərpa edib, burda onu pozacağam. Və divlərə və ifritələrə hökm edəcəyəm ki, haman dəqiqə Pariji yıxsınlar və on günə qədər xəbərini müsyö Jordana çatdırsınlar ki, Şahbaz bəyi aparmaq fikrindən düşsün; İndi buyurun görüm, cənabınız Parijin xarab olmağınmı istərsiniz, ya müsyö Jordanın boynunun vurulmağın?

**Xanpəri:** Hər ikisini, baba dərviş! Firənglərə yazığınızmı gələcək?

**Şəhrəbanu xanım:** Bıy, arvad, sənin ürəyin daşdır, nədir? Biçarə parijlilər bizə nə eləyiblər ki, evlərin, imarətlərin başlarına yıxaq, min-min adamın qırılmağına bais olaq? Bu qalmaqala bizi ancaq o çör-çöp düşürən müsyö Jordan salıbdır.

(üzün Məstəli şaha tutub). Baba dərviş, hər nə bilirsən ona eylə!

**Şərəfnisə xanım:** Can ana, elə demə, müsyö Jordan yazıqdır! Çox yaxşı adamdır. Bu yaylaq hər gün qəribə güllərdən, çiçəklərdən dəstələr bağlayıb Şahbaz bəydən mənə göndərirdi ki, apar adaxlına ver. Mən özümü öldürrəm, qoymaram müsyö Jordanın boynu vurulsun! Parij dağılsın, bizə nə? Əgər orda qızlar, gəlinlər üzüaçıq gəzməsəydilər, Şahbaz heç vaxt ora getməzdi. Parij yıxılsın, qız-gəlini də qırılsın!.

**Şəhrəbanu xanım:** Vallah, bilmirəm hansına razı olam? Amma dəxi necə eləyək? Şərəfnisə də doğru deyir; müsyö Jordan yazıqdır, yaxşı adamdır, eylə bircə bu işdə təqsirlidir ki, Şahbazı yoldan çıxarıb Parijə getməyi beyninə salıbdır. Məlum ki, Parijdə yaman adamalar var imiş. Qəza bu dərvişi bizə yetiribdir ki, bunun cadusu ilə oranı yıxdırıb xarab etdirək. (Üzün Məstəli şaha tutub) Baba dərviş, buyur divlərə, ifritələrə Pariji qaldırıb altını üstünə çevirsinlər!

**Məstəli şah:** Baş üstə, xanım!

**I Aparıcı:** Onun teatr səhnəsində, kinoda, ekranda qazandığı bütün uğurların təməlində müstəsna istedadından başqa bir mühüm sirr də var. Bu, Leyla Bədirbəylinin öz sənətinə sonsuz sevgisi və bir o qədər də böyük məsuliyyəti idi. Bacısı xatırlayır ki, Cəfər Cabbarlının "Solğun çiçəklər” əsərində Sara rolunu oynayarkən sonuncu pərdə bitəndən sonra heç vaxt başqa aktyor və aktrisalarla birgə tamaşaçılarla sağollaşmaq üçün səhnəyə çıxmazdı. Səbəbini izah edəndə deyərmiş ki, axı tamaşanın finalında Sara ölüb, o, yenidən səhnədə necə görünə bilər?!

Leyla xanım istedadlı bir aktrisa kimi tamaşaçı qəlbini necə sehirlədiyinin fərqində idi. O, oynadığı rolun təsirinin tamaşadan sonra da qalmasını istəyirdi. Çalışırdı ki,

tamaşaçılar teatr qapılarından o təsirlə çıxsınlar. Axırıncı səhnədə can verən Saranın əzablarını, son sözlərini, bu səhnənin yaratdığı göz yaşlarını unudulmaz təəssürat kimi özləri ilə gündəlik həyat və məişətlərinə daşısınlar. Hər dəfə xatırladıqca o səhnələr insanları mənən saflaşdırsın.

İlk dəfə on altı yaşında ikən o zaman rəqqas kimi eyni səhnədə çıxış etdikləri Fərəc Cavanşirovla ailə həyatı qurmuşdu. Bir il sonra onların Cavanşir adlı oğlu dünyaya gəlmişdi. Amma bu evliliyin ömrü qısa çəkmişdi. Leyla xanım ikinci dəfə Kamil Aslanovla ailə həyatı qurmuşdu. Kamil Aslanov diş həkimi olsa da, rəqsə böyük maraq göstərirdi. O da Leylanı rəqs səhnəsində görüb bəyənir, elçi göndərir. Beləcə, xoşbəxt sayıla biləcək yeni bir ailə həyatının təməli qoyulur.

Əfsus ki, ömrün qürubuna doğru xoşbəxt günləri bir-birinin ardınca faciələr əvəz edir. Həyat yoldaşı Kamil Aslanov xaricdə ağır yol qəzasına düşür və həlak olur. Bu hadisədən bir il sonra isə aktrisanın böyük qızı Laləni Bakıda maşın vurur. O da 48 yaşında dünyasını dəyişir. Bu iki hadisədən sonra Leyla Bədirbəyli depressiyaya düşür. Özünə qapanır. Heç kimlə görüşmək, danışmaq istəmir. Yalnız 1999-cu il yanvarın 1-də bu böyük aktrisanın sənətinə, şəxsiyyətinə hər zaman yüksək dəyər verən Ulu Öndər Heydər Əliyev ona "İstiqlal” ordenini təqdim edərkən evdən çıxıb ictimaiyyət arasında görünür. Elə həmin il noyabrın 23-də də 79 yaşında dünyadan köçür.

Nə qədər acı olsa da, həyatın qanunu dəyişməzdir. Ən böyük gözəlliklər də bir gün köçünü sürüb gedir. Amma əbədiyyət ömrü deyilən bir həqiqət də var. Leyla Bədirbəyli kimi sənətkarların gözəlliyi əbədidir. Bu gözəllik onun qəlbinin sevgisi, bitib-tükənməyən istedadı ilə yaratdığı rollarda, unudulmaz obrazlarda yaşayır. Azərbaycan gözəlinin qənirsiz çöhrəsi onun obrazlarının simalarından boylanır və könülləri fəth edir.

**S O N**

## Ədəbiyyat siyahısı


*Kitablarda*

**Rəhimli İ.** Leyla Bədirbəyli (8.1.1920 – 23.11.1999) // Səhnə fədailəri. 3 cilddə. – Bakı : Şərq- Qərb, 2018. – C. 1. – S. 338-341.

**Rəhimli İ**. Leyla Bədirbəyli (8.1.1920-23.11. 1999) // Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı : Teatrın 1873 - 2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi. 3 cilddə. – Bakı : Təhsil, 2013. – C. 2 : 1937-1969. – S. 588-590.

**Rəhimli İ**. Leyla Bədirbəyli (8.1.1920-23.11. 1999) // Səhnəyə qovuşan cığırlar. – Bakı : Aspoliqraf, 2013. – S. 405-409.

**Rüstəm S.** Leylamız : Leyla Bədirbəyliyə // Seçilmiş əsərləri 3 cilddə. - Bakı : Şərq-Qərb, 2005. - C.1. - S. 87.

*Dövri mətbuatda*

**Leyla Bədirbəylinin 100** illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (29 dekabr 2019-cu il) // Respublika. - 2019. - 30 dekabr. - № 291. - S. 1.

**Bayramov Z.** Səhnəmizin gözəllik ilahəsi : Dövlət başçısının Sərəncamı ilə Xalq artisti Leyla Bədirbəylinin 100 illik yubileyi qeyd olunacaq // Səs. - 2020. - 9 yanvar. - № 2. - S. 9.

**Əhmədalılar T.** Universal gözəl : aktrisa Leyla Bədirbəyli haqqında // Mədəniyyət. - 2014. - 10 yanvar. - № 2. - S. 12.

**Əliyeva İ.** Azərbaycan gözəli : Leyla Bədirbəyli - 100 // Azərbaycan. - 2020. - 2 fevral. - № 22. - S. 8.

**Əmirli Ş.** Sənətə yansıyan gözəllik : Leyla Bədirbəyli // Mədəniyyət. - 2020. - 24 yanvar. - № 6. - S. 7.

**Hüseynov Ə.** Gül çöhrəli Gülçöhrə // 525-ci qəzet. - 2019. - 22 may. - № 78. - S. 22.

**Leyla Bədirbəyli (1920-1999)** // Savalan. - 2020. - 28-31 yanvar. - № 3. - S. 2.

**Məhərrəmova T.** Azərbaycanın və səhnənin gözəli : Leyla Bədirbəyliyə Bolqarıstandan göndərilən məktubda nə yazılmışdı? // Kaspi. - 2020. - 9 yanvar. - № 2. - S. 15.

**Mükərrəmoğlu M.** Əsrin gözəli : Leyla Bədirbəyli - 95 // Xalq qəzeti. - 2015. - 25 fevral. - № 44. - S. 12.

**Rəhimli İ.** Milli teatrımızın naxışları : 33 aktyor haqqında 99 cümlə // Ədəbiyyat qəzeti. - 2017. - 25 noyabr. - № 42/43. - S. 22-23.

# Gözəllik simvolu Leyla Bədirbəyli

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 09
Çapa imzalanmışdır: 12.03.2020
Tirajı:100
Pulsuz